Elm

YUBİLEY

# Azərbaycanda informatikanın inkişafında böyük rolu olan alim

**Mayın 2-də informatika sahəsində görkəmli alim, Əməkdar elm xadimi, "Şöhrət" ordenli, AMEA-nın İdarəetmə Sistemləri İnstitutunun direktoru, akademik Telman Əliyevin 85 yaşı tamam olub.**



Telman Əliyev 1935-ci il mayın 2-də Goranboy rayonunda anadan olub. O, 1958-ci ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunu bitirib. 1966-cı ildə fəlsəfə, 1977-ci ildə elmlər doktoru dərəcələrini, 1985-ci ildə professor elmi adını alıb. 1983-cü ildə AMEA-nın müxbir, 2001-ci ildə həqiqi üzvü seçilib.

Əmək fəaliyyətinə 1958-ci ildə Hesablama Mərkəzində (hazırda İdarəetmə Sistemləri İnstitutu) başlayan alim 1988-ci ildən bugünədək həmin müəssisənin direktoru vəzifəsində çalışır.

Akademik tərəfindən siqnalların robast analizi texnologiyaları və nəzəriyyəsi, stoxastik proseslər üçün identifikasiyanın, tanınmanın və diaqnostikanın adekvatlığını təmin etməyə imkan verən nəzəriyyə və texnologiyaları, siqnalların küylərinin faydalı informasiya daşıyıcıları kimi analizi texnologiyası və nəzəriyyəsi, dövrü küylü siqnalların mövqeli-binar analizi texnologiyası və nəzəriyyəsi yaradılıb.

Alim texniki obyektlərdə "qəzaların gizli dövrünü monitorinq etməyə imkan verən səs texnologiyalarının və sistemlərinin" yaradılmasının nəzəri əsaslarını təklif edib. Yaradılmış sistem Heydər Əliyev adına Neftayırma zavodunda, "Şirvan OIL" şirkətində, Balaxanı Neftqazçıxarma İdarəsində tətbiq edilib. 2013-cü ildə Bibiheybət Neftqazçıxarma İdarəsinin 35 obyektində dərinlik neftçıxarma avadanlıqlarının məsafədən diaqnostikasını və idarə edilməsini təmin edən, rentabelliyi 2 dəfəyə qədər artırmağa imkan verən yeni nəsil "robast noise monitorinq sistemi"nin eksperimental variantı tətbiq edilib. İndiyə qədər bu sistem 300-dən artıq quyuda tətbiq olunub.

T.Əliyev 2004-cü ildə "Şöhrət" ordeninə, 2009-cu ildə "Əməkdar elm xadimi" adına, 2015-ci ildə Nəsrəddin Tusi adına mükafata layiq görülüb. 2018-ci ildə akademik Azad Mirzəcanzadə adına gümüş medalla təltif olunub.

Görkəmli alimi 85 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona uzun ömür, möhkəm can sağlığı, elmimizin inkişafı yolunda nailiyyətlər arzulayırıq.